

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 225 (24.362)

*5 dekabr 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Malayziyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Malayziyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ahmad Kamrizamil Bin Mohd Rzanın etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Ahmad Kamrizamil Bin Mohd Rza Malayziyanın Kralı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billahın və Malayziyanın Baş naziri Ənvər İbrahimin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Malayziyanın Kralına və Baş nazirinə çatdırmağı xahiş etdi.

Siyasi münasibətlərimizin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı əlaqələrimizin daha da fəallaşdırılmasının və əməkdaşlığımızın yeni istiqamətlərinin, o cümlədən investisiya, qarşılıqlı ticarət, humanitar sahələrdə müəyyənləşdirilməsinin zəruriliyini bildirdi.

Beynəlxalq institutlar çərçivəsində əməkdaşlığımızdan məmnunluğunu ifadə edən Prezident İlham Əliyev BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatında ölkələrimizin bir-birini dəstəkləməsinin önəmini vurğuladı və bunu qardaşlıq əlaqələrimizin yaxşı nümunəsi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı, eyni zamanda, iqtisadi əlaqələrin genişləndirilməsinin də vacibliyinə toxunaraq qarşıdan gələn illərdə nazirlər, hökumət nümayəndələri, biznes dairələri arasında qarşılıqlı səfərlərin təşkilinin bu işə xidmət edə biləcəyini dedi. Prezident İlham Əliyev səfirin Azərbaycanda fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcəyini qeyd edərək ona işində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi, turizm, ticarət və digər sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümidvarlığını ifadə etdi.

Diplomat bildirdi ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanda səfir təyin olunmasından şərəf hissi duyur. O, dövlətimizin başçısının çox xarizmatik və uzaqgörən bir Lider olduğunu vurğuladı.

Ahmad Kamrizamil Bin Mohd Rza əlaqələrimizin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Söhbət zamanı ölkələrimiz arasında turizm sahəsində əməkdaşlıq, mədəni-humanitar münasibətlərin genişləndirilməsi məsələləri müzakirə olundu, birbaşa aviareyslərin həyata keçirilməsi, Azərbaycan-Malayziya iqtisadi əlaqələrinin genişləndirilməsi üçün hökumətlərarası komissiyanın yaradılması məsələlərinə toxunuldu.

**AZƏRTAC**

## “Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2019-cu il 8 noyabr tarixli 182-V FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2019-cu il 8 noyabr tarixli 182-V FR nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

“2-1. Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin işçilərinin say həddi cəmi 603 ştat vahidi olmaqla, Aparat üzrə 194 ştat vahidi, yerli idarələri üzrə 409 ştat vahidi həddində müəyyən edilsin.”.

2. Həmin Fərmanla təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının Qaz İstismar Xidməti haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci bəndə “satışı” sözündən sonra “, həmçinin qaz təsərrüfatı” sözləri əlavə edilsin və həmin bənddə “dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır” sözləri “fəaliyyət göstərir” sözləri ilə əvəz edilsin;

2.2. 4-cü bənddən “digər” və “muxtar respublikada qeydiyyatdan keçən” sözləri çıxarılsın və həmin bəndə “qeyri-hökumət təşkilatları” sözlərindən sonra “, fiziki və hüquqi şəxslər” sözləri əlavə edilsin;

2.3. 6-cı bəndə “vəsait” sözündən sonra “, layihələr üçün ayrılmış qrant, Naxçıvan Muxtar Respublikasının büdcəsindən ayırmalar” sözləri əlavə edilsin;

2.4. 8.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“8.1. müvafiq sahədə dövlət siyasətinin formalaşması üçün təkliflər verir və bu siyasətin həyata keçirilməsinin təmin edilməsində iştirak edir;”;

2.5. 9.1-ci bənddə “hallarda normativ tənzimləməni həyata keçirmək” sözləri “normativ tənzimləmənin həyata keçirilməsində iştirak etmək” sözləri ilə əvəz edilsin;

2.6. 9.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“9.2. müvafiq sahədə dövlət proqramlarının, inkişaf konsepsiyalarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;”;

2.7. 9.3-cü, 9.4-cü və 9.9-cu bəndlər ləğv edilsin;

2.8. 9.22-ci bənddən “öz səlahiyyətləri daxilində” sözləri çıxarılsın;

2.9. 14-cü bənd üzrə:

2.9.1. birinci cümlədə “müavini” sözündən əvvəl “iki” sözü əlavə edilsin;

2.9.2. ikinci cümlədə “müavini” sözü “müavinləri” sözü ilə, “daşıyır” sözü “daşıyırlar” sözü ilə əvəz edilsin;

2.10. 15.2-ci bənddə “müavinin” sözü “müavinlərinin” sözü ilə əvəz edilsin;

2.11. 15.4-cü bənddən “qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla” sözləri çıxarılsın və həmin bəndə “aparatının” sözündən sonra “və” sözü, “qurumlarının” sözündən sonra isə “strukturunu” sözü əlavə edilsin;

2.12. 15.7-ci bəndə “nəzarət edir” sözlərindən sonra “, Xidmətin öz fəaliyyətini müstəqil yoxlaması üçün kənar auditlər cəlb edir” sözləri əlavə edilsin;

2.13. 16-cı bənddə “müavinindən” sözü “müavinlərindən” sözü ilə əvəz edilsin;

2.14. aşağıdakı məzmunda altıncı hissə əlavə edilsin:

**“VI. Xidmətin ləğvi və yenidən təşkili**

Xidmətin ləğvini və yenidən təşkilini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri həyata keçirir.”.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 2 dekabr 2023-cü il*

## “Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi” publik hüquqi şəxsin ləğv edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi və bəzi fərman və sərəncamlarının ləğv edilməsi barədə

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aşağıdakı fərman və sərəncamında dəyişiklik edilsin:

1.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 4 iyul tarixli 27-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı haqqında Əsasnamə”nin 15.0.3-cü yarımbəndi ləğv edilsin;

1.2. “Naxçıvan Muxtar Respublikasının bir sıra dövlət orqanları işçilərinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2019-cu il 21 sentyabr tarixli 403-05/S nömrəli Sərəncamının 1-ci hissəsi ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aşağıdakı fərman və sərəncamları ləğv edilsin:

2.1. “Naxçıvan Muxtar Respublikasında dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2017-ci il 7 iyul tarixli 70-V FR nömrəli Fərmanı;

2.2. “Naxçıvan Muxtar Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2018-ci il 6 dekabr tarixli 148-V FR nömrəli Fərmanı;

2.3. “Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi” publik hüquqi şəxsin yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 18 dekabr tarixli 48-VI FR nömrəli Fərmanı;

2.4. “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2021-ci il 25 iyun tarixli 114-06/S nömrəli Sərəncamı;

2.5. “Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi” publik hüquqi şəxsin işçilərinin aylıq vəzifə maaşlarının artırılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2022-ci il 3 avqust tarixli 229-06/S nömrəli Sərəncamı.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 4 dekabr 2023-cü il*

## “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” qanun layihəsi Ali Məclis komitələrinin birgə iclasında müzakirə edilib

Dekabrın 4-də “Araz” Dövlət Qonaq Evində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə əsasən aparıcı komitə təyin olunan İqtisadi siyasət komitəsinin sədri İsa İsayevin sədrliyi ilə “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi məqsədilə Ali Məclis komitələrinin birgə iclası keçirilib.

İclasda İqtisadi siyasət komitəsindən başqa Ali Məclisin Hüquq siyasəti, Sosial siyasət və Humanitar siyasət komitələrinin sədrləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Nazirlər Kabineti aparatlarının əməkdaşları, Nazirlər Kabinetinin üzvləri, Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri və digər rəsmi şəxslər iştirak edib.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev iclasda “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” qanun layihəsinin müzakirə olunacağını bildirib.

Qeyd olunub ki, hər il olduğu kimi, növbəti ildə də Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən 2024-cü il üçün muxtar respublika büdcəsinin gəlir və xərc maddələri üzrə strukturu proqnozlaşdırılıb və layihə şəklində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinə baxılması üçün təqdim edilib. Layihəyə görə 2024-cü ildə Naxçıvan Muxtar Respublika büdcəsinin

*Ardı 2-ci səhifədə*





gəlirləri 173 milyon 105 min manat məbləğində proqnozlaşdırılıb ki, bu da 2023-cü ildəki büdcə gəlirlərindən 20 milyon 883 min manat və ya 13,7 faiz çoxdur. Naxçıvan Muxtar Respublikası büdcəsinin xərcləri isə 516 milyon 365 min manat məbləğində nəzərdə tutulub. Bu isə onu göstərir ki, ötənilki büdcənin xərcləri ilə müqayisədə bu il muxtar respublika büdcəsi 88 milyon 648 min manat və ya 14,7 faiz az proqnozlaşdırılıb. Bunun da başlıca səbəbi xərclərin optimallaşdırılması və bir sıra dövlət orqanlarının saxlanma xərclərinin



mərkəzə ötürülməsi olub. 2024-cü il üçün nəzərdə tutulmuş Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlir hissəsi xərc hissəsindən 343 milyon 260 min manat az proqnozlaşdırılır ki, yaranacaq büdcə defisitinin ayrılacaq dotasiya hesabına aradan qaldırılması nəzərdə tutulur. Naxçıvan Muxtar Respublikası büdcəsi gəlirlərinin 2024-cü il və növbəti üç il ərzində artan templə proqnozlaşdırılması belə deməyə əsas verir ki, ölkəmizdə makroiqtisadi sahələr ildən-ilə davamlı inkişaf etməkdədir. Davamlı iqtisadi inkişafın təmin olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin qəbul etdiyi Dövlət proqramlarının icrası ölkədə sahibkarlığın və qeyri-neft sektorunun inkişafına təkan verib, sosial-iqtisadi sferada davamlı və dayanıqlı inkişafın təmin olunmasına şərait yaradıb. İnanırıq ki, Naxçıvan Muxtar Respublikasının təsdiq olunacaq büdcə layihəsi bundan sonra da ölkəmizin iqtisadi inkişafının tənzimlənməsində xüsusi əhəmiyyətə malik olacaq.

Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Həsən İsmayılov məlumat verib ki, 2024-cü il büdcə layihəsində gəlirlər 173 milyon 105 min manat proqnozlaşdırılır ki, bu da 2023-cü ilin büdcə gəlirləri ilə müqayisədə 20 milyon 883 min manat və ya 13,7 faiz çoxdur. Nəzərdə tutulan gəlirlərin 164 milyon 75 min manatı və ya 94,8 faizi Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların payına düşür ki, bu, 2023-cü illə müqayisədə 17 milyon 193 min manat və ya 11,7 faiz çoxdur. Büdcə gəlirlərinin 5 milyon manatı və ya 2,9 faizi gömrük orqanları tərəfindən təmin edilən daxilolmaların payına düşür ki, bu da 2023-cü illə müqayisədə 3 milyon 850 min manat və ya 4,3 dəfə çoxdur. Gəlirlər üzrə proqnozun 4 milyon 30 min manatının və ya 2,3 faizinin büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxil olması proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 160 min manat və ya 3,8 faiz azdır. 2024-cü il büdcə layihəsində muxtar respublikanın şəhər və rayonları üzrə gəlirləri 62 milyon 781 min manat, o cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna aid olan məbləğ 150 min manat, yerli xərclər 51 milyon 925 min manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 19 milyon 377 min manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 8 milyon 671 min manat məbləğində nəzərdə tutulub. Növbəti ildə Naxçıvan şəhəri, Babək, Şərur və Kəngərli rayonlarının büdcələri dotasiyasız olmaqla, Ordubad, Culfa, Şahbuz, Sədərək rayonlarının büdcələri isə muxtar respublikanın mərkəzi xərclərindən dotasiya ayrılmaqla planlaşdırılır.

Nazir müavini qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcə layihəsində xərclər 516 milyon 365 min manat məbləğində proqnozlaşdırılır ki, bu, 2023-cü ilin büdcə xərcləri ilə müqayisədə 88 milyon 648 min manat və ya 14,7 faiz azdır. Büdcə xərclərinin 458 milyon 692 min 950 manatı, yaxud 88,8 faizi cari xərclər üzrə, 57 milyon 672 min 50 manatı və ya 11,2 faizi isə əsaslı xərclər üzrə proqnozlaşdırılır. Təhsil və səhiyyə sahəsində dövlət proqramlarının maliyyə təminatının həyata keçirilməsi məqsədilə təhsil sisteminin informasiyalaşdırılması, texniki peşə təhsilinin inkişafı tədbirləri və STEAM təlim-tədris mərkəzi üçün 1 milyon 161 min 237 manat, şəkərli diabet, xroniki böyrək çatışmazlığı, hemofiliya, talassemiya və səhiyyə sahəsindəki digər tədbirlər üçün 5 milyon 55 min 605 manat vəsait nəzərdə tutulur. Növbəti ilin büdcə layihəsində dövlət əsaslı vəsait qoyuluşu, investisiya xərcləri üçün 22 milyon manat məbləğində vəsait müəyyənləşdirilib. Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 2024-cü il büdcə layihəsində 10 milyon 300 min manat məbləğində vəsait nəzərdə tutulur ki, bu, 2023-cü ilə nisbətən 49,8 faiz və ya 10 milyon 200 min manat azdır.

Sonra 2024-cü il büdcəsinin layihəsi ətrafında geniş müzakirələr aparılıb.

İqtisadi siyasət komitəsinin üzvü Vüqar Abbasov büdcə layihəsində ötən illə müqayisədə xərclərin artdığını, lakin daxilolmalarda ciddi dəyişikliyin olmadığını bildirib. Növbəti il üçün inflyasiyanın nəzərə alınmasını diqqətə çatdırıb. Büdcə gəlirlərinin artmasının birbaşa sahibkarlığın inkişafı ilə bağlı olduğunu, müvafiq konsepsiya hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsini və sahibkarlığın inkişafı istiqamətində tədbirlər görülməsini, sahibkarlarla dövlət orqanları arasında əlaqələrin qurulmasının vacibliyini vurğulayıb. Bəzi sahələrdə xərclərin azaldığını deyib.

Maliyyə nazirinin müavini bildirib ki, Azərbaycan Respublikasında büdcə sisteminin təşkili, büdcənin tərtibi, təsdiqi, icrası və onların icrasına nəzarətin təşkilati, hüquqi və iqtisadi əsasları "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Büdcə layihəsində xərclərin və ya dotasiyanın azalması büdcə təşkilatlarının proqnozu əsasında real xərclər müəyyənləşdirilib. Bundan əlavə, büdcə xərclərinin azalmasının bəzi dövlət qurumlarının mərkəzləşdirilməsi ilə bağlı olduğunu diqqətə çatdırıb.

Muxtar respublikada sahibkarlıq sahəsində əlverişli biznes mühiti və müasir vergi inzibatçılığı yaradıldığını deyən Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi Abbas İsmayılov bildirib ki, muxtar respublikada sərt inzibatçılıq tətbiq olunmur. Vergiödəyicilərinə xidmətlərin göstərilməsi və bu istiqamətdə əlçatanlığın təmin olunması məqsədilə Naxçıvan şəhərində Vergiödəyicilərinə xidmət mərkəzi yaradılıb. Şərur və Ordubad rayonlarında isə yeni mərkəzlər istifadəyə veriləcək. Abbas İsmayılov vergi daxilolmalarını ötən ilin müvafiq dövrü ilə müqayisə edib, POS-



terminalların sayında, yeni qeydiyyatdan keçmiş obyektlərin və vergiödəyicilərin sayında artım olduğunu, yeni nəzarət-kassa aparatlarının quraşdırıldığını diqqətə çatdırıb. Sahibkarlar tərəfindən muxtar respublikada investisiya qoyuluşuna maraq olduğunu, hazırda mövcud vəziyyətin öyrənildiyini, məqsədin vergitutma bazasını genişləndirməkdən ibarət olduğunu deyib. Naxçıvanda iri sahibkarlıq subyektləri tərəfindən vergi daxilolmaları yüksək olduğundan müvafiq risklərin də yarandığı qeyd edilib.

Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli büdcə layihəsində ayrılması nəzərdə tutulan vəsaitin suvarma suyu ilə təminata kifayət edib-etməyəcəyi ilə bağlı sual ünvanlayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli büdcə layihəsinin Ali Məclis Aparatında da müzakirə olunduğunu deyib, büdcə gəlirlərinin mədaxil mənbələri üzrə dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividentlərin göstərilməməsi, büdcə xərclərinin istiqamətləri üzrə seçkilərin keçirilməsi, məhkəmə qərarlarının icrası ilə bağlı xərclərin göstərilməməsi, su təsərrüfatı üzrə xərclərin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsinə ehtiyac olduğunu diqqətə çatdırıb. Ülvi Hüseynli, həmçinin büdcə zərfi çərçivəsində təqdim edilmiş sosial-iqtisadi inkişafın ortamüddətli (2024-2027-ci illər üzrə) prioritetləri ilə bağlı sənəddə olan çatışmazlıqlar haqqında məlumat verərək növbəti illərdə bu cür nöqsanların aradan qaldırılması yollarından danışıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov bildirib ki, fiziki şəxslərin gəlir vergisi ötən illə eyni səviyyədə saxlanılıb. Bu isə qeyd olunan vergi daxilolmalarının artması, bu sahədə şəffaflığın təmin olunması, qeydə alınan vergiödəyicilərinin sayının artması fikirləri ilə ziddiyyət təşkil edir. Bununla yanaşı, dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmaların da ötən illə eyni səviyyədə saxlanılması sual doğurur. Çünki cari ildə qeyd olunan iqtisadi aktivliyin artması, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin artması ardıcıl olaraq bu tədiyə növünün də artımına səbəb olmalı idi. Cəlil Rüstəmov büdcə təşkilatlarının ödənişli xidmətlərdən daxilolmalarının azalmasının səbəblərinin aydınlaşdırılmasını xahiş edib.

Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova elm xərclərinin ötən illə müqayisədə azaldığını, təsərrüfat hesablı və özəl müəssisələrdə çalışan əməkdaşların iş saatının düzgün tənzimlənmədiyini, qadınların hüquqlarının qorunması ilə bağlı əlavə tədbirlərin görülməli olduğunu bildirib, ünvanlı sosial yardım, həmçinin sosial müdafiə sahəsində nəzərdə tutulan xərclər barədə məlumat verilməsini istəyib.

İclasda Humanitar siyasət komitəsinin sədri Elman Cəfərli, komitənin üzvü Ehtimad Məmmədov və Hüquq siyasəti komitəsinin üzvü Hüseyn Bağırsoylu çıxış edib, 2024-cü il büdcə layihəsi ilə bağlı rəy və təkliflərini bildirib, suallarını səsləndiriblər.

Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Həsən İsmayılov, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi Abbas İsmayılov və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri Aləm Bağırov qaldırılan məsələlərə aydınlıq gətirib, sualları cavablandırıblar.

Müzakirələrdən sonra büdcə layihəsinin altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü ilin payız sessiyasının növbəti iclasına təqdim olunması üçün qərar qəbul edilib.

Qeyd edək ki, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" qanun layihəsi 30 noyabr 2023-cü il tarixdə Ali Məclisin rəsmi orqanı olan "Şərq qapısı" qəzetində dərc olunaraq ictimai müzakirəyə çıxarılıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



## Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib...

### *Onlar Azərbaycandan uzaqlarda da Azərbaycanla həmrəydirlər*

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.***

Söhbətimizə bir qədər əvvəllərdən başlamaq istəyirəm. 2019-cu ilin yay ayları idi. İş otağımdakı telefon zəng çaldı. Dəstəyi götürdüm. Tanış olmayan bir səs salam verib əhvalımı soruşdu.

– Sağ olun, – deyib bir qədər gözlədim.

– Müəllim, mənəm, Vüqar Süleymanov, Hüseyn müəllimin oğlu... Yanınıza gəlmək, sizi görmək istəyirəm.

– Gəlin deyib, – telefonun dəstəyini yerə qoyduqdan sonra xəyal məni neçə il əvvəllərə qaytardı. Ordubad rayonunun Aza kənd tam orta məktəbində direktor müavini vəzifəsində işləyirdim. Vüqargilin ailəsi Aza kəndinə Ordubad rayonunun ucqar dağ kəndi Tividən köçmüşdü. Atası Hüseyn müəllim məktəbə ibtidai sinif müəllimi təyin olunmuşdu. Dərslər 1-2 ay idi ki, başlamışdı. Elə bu müddət ərzində Vüqar özünü müəllimlərə sevdirməyi bacarmışdı. Bütün fənlərdən yaxşı qiymətlər alırdı. Məktəbin keçirdiyi tədbirlərdə fəallıq göstərir, müxtəlif səviyyədə təşkil olunan fənn olimpiadalarında yüksək nəticələr qazanırdı. Maraqlı orası idi ki, onda bütün fənlərə güclü maraq vardı. Bunu isə hər bir şagirddə görmək olmaz. Bir dəfə Hüseyn müəllimlə söhbətimiz bu barədə oldu. O vaxt Vüqar 6, ya 7-ci sinifdə təhsil alırdı. Ancaq hansı ixtisası seçəcəyini atasına da deməmişdi. Hüseyn müəllimin o vaxt mənə dediyi sözləri indi də yaxşı xatırlayıram:

– Bütün fənləri eyni səviyyədə oxuyur və mənimsəyir. Bundan sonra keçir mütaliəyə. Kitabdan ayıra, qəlbinə dəyə bilmirəm. Düzünü deyim ki, bəzən ehtiyac olmayan bir işin dalınca göndərirəm...

Sonra Vüqarla bu barədə dəfələrlə söhbətim oldu. Seçimini isə səkkizinci sinifdə oxuyarkən bildik: həkim olmaq arzusundadır. Səkkizinci sinfi bitirdikdən sonra Bakı şəhərindəki kimya-biologiya təmayüllü internat məktəbə qəbul olundu. Bu məktəbdən də tez-tez onun xoş sədasını eşidirdik. Yadımdadır ki, təmayüllü məktəbdə oxuduğu illərdə 3 dəfə fənn olimpiadalarının respublika turunda kimya fənni üzrə 1-ci yerə sahib çıxmışdı. 1988-ci ildə Vüqar Süleymanov Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil oldu. 1994-cü ildə Cərrah ixtisası ilə ali məktəbi bitirdi. Fərqlənmə diplomu ilə. Bir il internaturada təhsil aldı. Onu da deyim ki, Vüqar institutda oxuduğu illərdə ikiillik ingilis dili kurslarını da bitirməyi bacarıb.

İnstitutu bitirdikdən sonra 3 il Bakının Kürdəxanı və Pirşağı həkim ambulatoriyalarında işləyib. Bu o dövr idi ki, Ümummilli Liderimiz Heydər Əliyevin Səudiyyə Ərəbistanı ilə imzaladığı müqaviləyə əsa-



sən gənc həkim kadrlarının həmin dövlətdə işləməsi üçün oranın Səhiyyə Nazirliyindən gəlmiş nümayəndə heyəti müsabiqə keçirir, müsabiqədə fərqlənənlər Səudiyyə Ərəbistanında işləmək hüququ qazanırdılar. 1996-cı ildə keçirilən müsabiqənin nəticələri 1998-ci ildə bəlli olur. Vüqar Süleymanov həmin ilin iyun ayında Səudiyyə Ərəbistanına yola düşür. Şərq əyalətinin Gübail Şəhər Mərkəzi Xəstəxanasında əmək fəaliyyətinə başlayır. Dörd il burada çalışır. Bu ölkənin qanunlarına əsasən bir müddət rezident kimi fəaliyyət göstərir. Sonra mütəxəssis və nəhayət, konsultant dərəcəsinə layiq görülür. Bu illərdə ciddi elmi işlə məşğul olur. 2002-ci ilin iyununda Böyük Britaniyanın Edinburq şəhərində Kral Cərrahlıq Akademiyasında “Yanıqların rekonstruktiv cərrahiyyəsi” mövzusunda namizədlik dissertasiyası müdafiə edir. Vüqar Süleymanovun elmi rəhbəri, professor Devin Duraess və opponentləri Corc Sen və Pradipa Duttanın dissertasiya haqqında verdiyi rəylərə baxıram. Açıq-aşkar köksüm fərəhdən qabarır. Devin Duraess yazır: “Mövzu çox az araşdırılmış, tədqiq edilmiş bir sahə olduğu üçün düşünürdüm ki, dissertantımın çətinlikləri çox olacaq. Onun bu ciddi və xeyli axtarış tələb edən mövzunun öhdəsindən gələ biləcəyinə inamım çox az idi. Bir qədər sonra fikrimdə yanıldığımı gördüm. Başa düşdüm ki, Vüqar Süleymanov özünə qarşı həddindən artıq tələbkardır. Onun əsl elm adamı olacağına inandım. Vüqar bu inamı yüksək səviyyədə doğrultdu. Düşünürəm ki, bundan sonrakı tədqiqatçılıq fəaliyyətində o öz bilik və tədqiqatçılıq qabiliyyətini dəfələrlə ortaya qoya biləcək”.

2012-ci ildən 2016-cı ilədək Kanadanın Kvebek əyalətinin Qranvi şəhər xəstəxanasında cərrah kimi çalışıb. Burada xeyli təcrübə toplayıb. Bu illərdə elmi tədqiqatlarını da davam etdirib. Yuxusuz gecələr, müxtəlif elmi kitablar, təcrübələr, polemikalar onun yolyoldaşı olub. Müxtəlif çətinliklərə sinə gərib. Elmin daşlı-kəsəkli yolları onu yora bilməyib. Bu yolun sonunun uğurla nəticələnəcəyinə inanıb.

Vüqarın elmi rəhbərinin o vaxt dedikləri özünü doğruldub. O, “Zədələnmiş öd yollarının bərpası” mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib. Bir müddət Kanadanın Ontario əyalətinin Toronto şəhərinin Seyt-Maykl xəstəxanasında baş elmi işçi vəzifəsində çalışıb. Vüqar Süleymanov travma üzrə təlimatçı kimi 2012-ci ildən dünyanın müxtəlif ölkələrinə dəvət olunaraq mühazirələr, seminarlar aparır.

Müxtəlif elmi konfrans və simpoziumlarda iştirakı bu gənc alimin yüksək elmi dairələrdə tanınmasına şərait yaradıb. Onun cərrahiyyənin ən aktual problemləri ilə bağlı Fransada, İngiltərədə, Səudiyyə Ərəbistanında, Birləşmiş Ərəb Əmirliklərində, Kanadada və başqa ölkələrin nüfuzlu elmi tədbirlərində çıxışları maraqla qarşılanıb.

Vüqar Süleymanov müntəzəm olaraq dünyanın səhiyyə mətbuatında maraqlı elmi yazıları ilə çıxışlar edir. Onun Amerika Birləşmiş Ştatlarının “Cərrahlıq arxivləri”, Böyük Britaniyanın “Cərrahlıq” və “Tibb”, Səudiyyə Ərəbistanının “Səudi tibb” və başqa jurnallarda “Xolesistektomiyadan sonra öd yollarında qalan daşların müalicəsi”, “Mezotelyomanın qasıq nahiyəsinin şişi şəklində təzahürü”, “Laparoskopik əməliyyatdan sonra peritonönü yırtıqların ilkin diaqnozu”, “Öd yolları zədələnmələrində ilkin bərpanın gecikmiş bərpadan üstünlüyü” adlı yazıları dünya tibb elminə töhfə kimi dəyərləndirilib.

...O vaxt Vüqar Süleymanovla ata həyətindəki söhbətimizdə Vüqar həyatda qazandığı bütün uğurlar üçün Ulu Öndər Heydər Əliyevə borclu olduğunu bildirdi. Dahi rəhbərin onun kimi yüzlərlə gəncin gələcək karyerasını yüksək səviyyədə təşkil etməsində rolunu yüksək qiymətləndirdi. Ölkəmizdə onun müəyyənləşdirdiyi inkişaf strategiyasına böyük sədaqət və ehtiram göstərilməsinin təbii olduğunu dilə gətirdi. Vüqar Ümummilli Liderimiz Heydər Əliyevin xeyir-duası ilə dünyanın müxtəlif dövlətlərində fəaliyyət göstərən həmin gənclərin Azərbaycanı Azərbaycandan kənarda tanıtmaq üçün yaratdıqları diaspor təşkilatlarının fəaliyyətindən də danışdı.

...Bu günlərdə keçmiş şagirdim, öz fəaliyyəti ilə onu tanıyan bütün azərbaycanlılar kimi qürur duyduğum Vüqarla telefon əlaqəsi saxladım. Xeyli söhbət etdik. Vaxtilə sıravi həkim kimi fəaliyyət göstərdiyi Səudiyyə Ərəbistanının Şərq əyalətində yerləşən Gübail Şəhər Mərkəzi Xəstəxanasında şöbə müdiri vəzifəsində çalışan Vüqar bildirdi ki, doğma Vətəndən min kilometrlərlə uzaqda olsa da, tez-tez Azərbaycanla əlaqə saxlayır:

– Ölkəmizdə son illərin ictimai-siyasi proseslərini burada yaşayan azərbaycanlılar da daim izləyirlər. Birləşdiyimiz diaspor təşkilatı bu hadisələri izləməklə Azərbaycan həqiqətlərini dünyaya çatdırır. Ölkə başçısının həyata keçirdiyi siyasi kursun Azərbaycanın sabahına inamı, 30 il düşmən tapdağında qalan torpaqların beynəlxalq hüquq normaları çərçivəsində geri alınması, 2020-ci ilin sentyabr ayında başlanan və ordumuzun böyük qələbəsi ilə başa çatan müharibə diaspor üzvlərinin hər birinə böyük sevinc hissləri yaşadıb. Həmyerlilərimiz bir neçə gün qələbəmizi bayram etdilər. 2023-cü ilin sentyabr ayında antiterror tədbirlərinin həyata keçirilməsi, müharibədən ötən dövr ərzində Qarabağda və işğaldan azad edilmiş digər rayonlarımızda böyükmiqyaslı tikinti-quruculuq işlərinə start verilməsi, vaxtilə Qarabağdan – doğma ev-eşiklərindən didərgin salınmış həmyerlilərimizin yurd-yuvalarına qayıtması, burada müxtəlif beynəlxalq mədəni tədbirlərin təşkili, ölkə Prezidentinin geri qaytarılmış torpaqlarımıza səfərləri Azərbaycanın iqtisadi gücünü bütün dünyaya nümayiş etdirməkdədir. Bu güc həm də verilən tapşırığı vaxtında yerinə yetirməyə qabil olan ordumuzun formalaşdırılmasında başlıca amillərdən biri olub. Təbii ki, biz də fəaliyyət göstərdiyimiz xarici ölkələrdə bütün bunlarla qürur duyuruq. Qürur duyuruq ki, Ulu Öndərin böyük səyləri hesabına əldə edilmiş müstəqilliyimiz xalqımızın dahi oğlunun siyasi xəttinin davamçısı cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti hesabına bu gün qorunur və inkişaf etdirilir.

Vüqar Naxçıvanın da bugünkü həyatından xəbərdardır: – Ölkə başçısının bu qədim diyara davamlı diqqət və qayğısının nəticəsi kimi Naxçıvanda yeni idarəetmə institutunun yaradılması, ötən dövrdə burada məqsədyönlü islahatlara başlanılması Naxçıvanın sabahkı xoş günlərindən soraq verir.

Vüqar Süleymanov deyir ki, cənab İlham Əliyevin Naxçıvanda yeni idarəetmə institutu yaratması ölkə başçısının Şərqin qapısına növbəti qayğısının təzahürüdür. Respublika Prezidentinin muxtar respublikamızın 2023-2027-ci illəri əhatə edən sosial-iqtisadi inkişafına dair Dövlət Proqramını imzalaması Naxçıvanın daha güclü inkişafını təmin edəcək. Burada daim izlədiyimiz Azərbaycan və Türkiyə əlaqələrinin yüksək səviyyədə olması da bizi ürəkdən sevindirir. Sentyabr ayında məhz Naxçıvanda hər iki ölkə rəhbərinin iştirakı ilə İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasiminin keçirilməsi, Qars-Naxçıvan dəmir yolu layihəsinə dair protokol imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun potensialının genişləndirilməsi ilə bağlı söhbətlər aparması, Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışı bütün dünya azərbaycanlılarını sevindirdi.

*...Vüqarla xeyli davam edən söhbətimizdə bir daha əmin oldum ki, görkəmli dövlət xadimi Heydər Əliyevin qurduğu Azərbaycanın dövlətimizə, dövlətçiliyimizə, müstəqilliyimizə qəlbən bağlı olan vətəndaşları (bu sırada gənclərin çoxluğunu vurğulamağı lazım bilirəm) yaşadıqları və fəaliyyət göstərdikləri xarici ölkələrdə də öz həmrəylik duyğularını nümayiş etdirirlər; hər bir azərbaycanlının Prezidenti olmaq vədinə əməl edən cənab İlham Əliyevin ətrafında sıx birləşərək Ulu Öndərin:* ***“Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan”*** *tövsiyəsini həyat və fəaliyyət proqramına çeviriblər.*

**✍ Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Naxçıvanda mühasiblər forumu keçirilib

*Dekabrın 2-də Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin təşəbbüsü, Azərbaycan Respublikasının Dövlət Vergi Xidməti, İqtisadi Araşdırmalar və Tədris Mərkəzi, Gənc Mühasiblər İctimai Birliyi və Bakı Hesabat Mərkəzinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilən “Rəqəmsal dövrdə mühasibatlıq: Yeni tələblər və çağırışlar” mövzusunda mühasiblər forumu keçirilib.*



Forum iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərində ucalan abidəsi önünə gül dəstələri düzüb, dahi şəxsiyyətin əziz xatirəsini ehtiramla yad ediblər. Sonra Heydər Əliyev Muzeyində Ulu Öndərin həyatı və fəaliyyətini əks etdirən eksponatlarla tanışlıq olub.

Forum çərçivəsində Bakıdan dəvət olunmuş qonaqların Duzdağ Fizioterapiya Mərkəzinə ekskursiyası təşkil edilib.

Naxçıvan Biznes Mərkəzində keçirilən forumun rəsmi hissəsində əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib. Naxçıvan Muxtar Respublikasının maliyyə naziri vəzifələrinin müvəqqəti icraçısı, nazir müavini Həsən İsmayılov çıxış edərək bildirib ki, forumun məqsədi uçot və vergi siyasətinin rəqəmsal iqtisadiyyatda baş verən dəyişikliklərin tempinə və inkişafda olan iqtisadi mühitə uyğunlaşdırılması sahəsində aparılan islahatların həyata keçirilməsinə dəstək göstərilməsi, mühasiblər arasında ünsiyyət və ruh yüksəkliyi yaratmaqla onlarda öz peşələrinə maraq oyadılması, yeni biliklərin qazandırılmasından ibarətdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri vəzifələrinin müvəqqəti icraçısı Nihad Mehbalıyev və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndəsi Mirəli Kazımov çıxışlarında əsası Ulu Öndər tərəfindən qoyulan, bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla reallaşdırılan iqtisadiyyat, vergi islahatlarından, şəffaf maliyyə sisteminin, azad sahibkarlıq mühitinin formalaşmasından söhbət açıblar.

Ümummilli Lider Heydər Əliyevin maliyyə, uçot və vergi sisteminin yeni dövrün tələblərinə uyğun qurulmasındakı əvəzsiz xidmətlərindən danışan Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova bildirib ki, forumun keçirilməsində əsas məqsədlərdən biri də Ulu Öndərin ölkəmizin iqtisadi inkişaf strategiyası istiqamətində gördüyü əvəzolunmaz işlərinin nəticələrini təqdim etməkdir.

Sonra Ulu Öndərin ölkəmizin inkişafı naminə tarixi xidmətlərindən bəhs edən videoçarx nümayiş olunub.

Forum “Rəqəmsal iqtisadiyyatda uçot və hesabatlılıq, yeni tələblər” və “Vergi sistemi və inzibatçılığı sahəsində həyata keçirilən yeniliklər, qarşıya çıxan çətinliklər” adlı 2 panel üzrə davam edib. “Dövlət və özəl sektorda mühasib peşəsinə qoyulan tələblər”, “Rəqəmsal dövrün mühasibat uçotuna təsiri və regionlarda uçotun inkişaf məsələləri”, “Rəqəmsal mühasibatlıqda ERP sistemlərinin əhəmiyyəti”, “Büdcə və büdcədən maliyyələşən təşkilatlarda ERP sistemlərinin tətbiqi, inkişafı və gələcək hədəflər”, “Sahibkarlıq subyektlərində uçot və biznes təhlükəsizliyi: məsuliyyətlər və vəzifələr”, “Vergi uçotu və inzibatçılığında yeni çağırışlar”, “Biznes subyektlərində yeni çağırışlar müstəvisində vergi işinin təşkili”, “Vergi Məcəlləsinə nəzərdə tutulan əlavə və dəyişikliklər, onların vergi uçotu və hesablarına təsirləri” mövzularında çıxışlar dinlənilib, müzakirələr aparılıb.

Qeyd edək ki, forum çərçivəsində dekabrın 3-də təşkilatçılar və Bakıdan dəvət olunmuş qonaqlar üçün muxtar respublikanın gəzməli-görməli yerlərinə tur proqramı təşkil olunub.

**✍ Nail ƏSGƏROV**



## Naxçıvanlı şəhid valideynləri Şuşada olublar

44 günlük haqq savaşında Naxçıvanın qəhrəman övladları işğalda olan torpaqlarımızın azad olunmasında böyük şücaət və qəhrəmanlıq




göstərərək tarixi Qələbənin qazanılması öz töhfələrini veriblər. Həmin qəhrəmanlardan bir qrupunun valideynləri Qarabağın tacı Şuşada olublar.

Şuşaya səfərlər davam etdiriləcək.

## Tullantıları tingə dəyiş



*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən muxtar respublikada ilk dəfə olaraq həyata keçirilən “Tullantıları tingə dəyiş” aksiyası əhali arasında böyük maraqla qarşılanıb.*

Aksiya nazirliyin təşkilatçılığı ilə Naxçıvan şəhərində fəaliyyət göstərən “Sizin market”in qarşısında keçirilib.

Vətəndaşlar arasında yaşıllıqların artırılması və tullantıları çeşidləmə vərdişinin formalaşmasına yönəlmiş aksiya çərçivəsində ümumi tutumu 250 litr olan plastik, 60 litr şüşə və 40 ədəd işlənmiş batareya təhvil alınaraq əvəzində 200 ədəd ağac tingi paylanılıb. Qeyd edək ki, paylanılan ağac tingləri nazirliyin tinglik sahəsində yetişdirilir.

Aksiyalar Naxçıvan şəhərində və rayonlarda növbəti günlərdə də davam etdiriləcək.

**Xəbərlər şöbəsi**

# Qərənfildən xarıbülbülə uzanan tarixin baş qəhrəmanları




*Ötən günlərdə muxtar respublikada ilk olaraq Babək şəhərində şəhidlər abidə-memorial kompleksi istifadəyə verildi. Abidənin bir tərəfində Ümummilli Lider Heydər Əliyevin **“Hər bir şəhid millətin mənəvi ucalığıdır. Şəhidlik milləti yüksəldən, milləti millət edən amillərdən biridir”**, digər tərəfdə isə Prezident cənab İlham Əliyevin **“Ölkəmizin müdafiəsi uğrunda şəhid olmuş insanların adı daim bizim qəlbimizdədir, onların xatirəsi bizim üçün əzizdir, onlar bizim üçün unudulmazdır!”** sözləri yazılıb. Kompleks və onun ərazisindəki “Tarix yazan qəhrəmanlar” guşəsi Birinci Qarabağ müharibəsində və 44 günlük Vətən müharibəsində şəhid olmuş Vətən övladlarına böyük ehtiramın ifadəsidir. Həmin Vətən övladları ki öz canlarını torpaq uğrunda fəda ediblər.*

Abidənin üzərində Babək rayonundan 64 şəhidin fotosu və məlumatları öz əksini tapıb. Şəhid valideynləri Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər Ordumuzun qazandığı tarixi Zəfər və bu Zəfərdə əvəzsiz payı olan oğullarla bağlı fikirlərini “Şərq qapısı” qəzeti ilə bölüşüblər. İlk olaraq “Tarix yazan qəhrəmanlar” guşəsinin önündə dayanan şəhidimiz Rasim Ramazanovun ailəsi ilə görüşdük. Şəhidimizin atası ***İsmayıl kişi*** və anası ***Tərlan xanım*** bildirdilər ki, bu abidədə oğulları Rasimin də şəkli əbədiləşib. Buranı ziyarət edən hər bir şəxs oğlum Rasim və digər qəhrəman övladlarımızı tanıyacaq. Ye-




tişməkdə olan gənc nəsil də bu qəhrəmanlara baxıb özlərinə hər zaman örnək götürəcək.

Qeyd edək ki, Rasim Ramazanov 1998-ci il iyulun 26-da Babək şəhərində dünyaya göz açmışdı. Vətən müharibəsində işğal altında olan ərazilərimizin azad edilməsi uğrunda gedən döyüşlərdə Füzuli və Xocavənd rayonlarının azad olunmasında iştirak etmişdi. Rasim Ramazanov oktyabrın 19-da Xocavənd döyüşləri zamanı böyük qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucaldı. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə o, ölümündən sonra “Vətən uğrunda”, “Şuşanın azad olunmasına görə” və “Hərbi xidmətlərə görə” medalları ilə təltif edilib.

Digər müsahibimiz ***Təranə Hümbətova***dır. Təranə ana deyir



ki, yaşadığımız qələbənin sevincini bizə bəxş edən igidlərimizin xatirəsinin burada əbədiləşdirmək, gələcək nəsillərə tanıtmaq mühüm əhəmiyyət daşıyır. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən misilsiz qələbə bu abidəni ziyarət edən hər bir vətənsevərin yaddaşına həkk olunacaq. Vətən oğullarının və qızlarının şücaəti hər bir şəxsə nümunədir.

İmaməddin Hümbətov 5 sentyabr 1998-ci ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Payız kəndində anadan olmuşdu. Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri kimi İmaməddin Hümbətov Vətən müharibəsində Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, “Vətən uğrunda”, “Şuşanın azad olunmasına görə”, “Hərbi xidmətlərə görə”, “Xocavəndin azad olunmasına görə”, “Vətənə xidmətə görə” medalları ilə təltif edilmişdi.

***Babək rayon Vayxır kənd sakini, Birinci Qarabağ müharibəsi qazisi İsgəndər Əhmədov*** söhbət zamanı bildirdi ki, Sədərəkdə gedən döyüşlərdə yaralanıb. Həmçinin qazimiz 44 günlük Vətən müharibəsində iştirak etmək üçün dəfələrlə müraciət edib. O deyir ki, hər zaman torpaq, bayraq, Vətən, xalq uğrunda mübarizəyə hazırdır. Yaşından asılı olmayaraq, böyükdən-kiçiyə kimi hər bir azərbaycanlının qəlbində Vətən sevgisinin şövqü var. Bizə




qalibiyyəti yaşadıb zəfəri bəxş edən qəhrəman oğulların ruhu qarşısında baş əyirik.

***Şəhid Zamin Məmmədovun anası Nərgiz Həsənova:*** – Qəlbi daim Vətən sevdası, Vətən eşqi ilə döyünürdü. Bütün qəhrəman oğullarımız kimi Zaminin də bir amalı var idi: əzəli yurdumuz Qarabağı azad etmək. Təəssüf ki, bu arzusuna sağ ikən çata bilmədi. Ancaq bu gün ruhu şaddır. Bütün bu yüksək duyğuları bizə Ali Baş Komandanımız və qəhrəman oğullarımız yaşadıb. Bu abidə isə həmin zəfərin simvoludur deyərdim. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin, bayrağımız daim ucalarda olsun.

***Şəhid baş leytenant Allahyar Telmanlının anası Nuriyyə Əkbərova:*** – Oğlum Allahyar 2016-cı ildə Aprel döyüşlərində, silahdaşını döyüş meydanından çıxarmaq istəyərkən snayperlə başından vurulub. Göstərdiyi şücaətə görə “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medal ilə təltif olunub. Yaralı olmasına baxmayaraq, ürəyindəki Vətən eşqi onu Qarabağ uğrunda Vətən müharibəsində də iştirak etməyə sövq etdi. Allahyar kəşfiyyatçı idi. Cəbrayılın Nüzgar kəndinə üçrəngli bayrağımızı məhz övladım Allahyar sancdı. Bu abidədə övladımın şəklinin yer alması bizi qürurlandırır.

*Xalqımız Vətən uğrunda canından keçən əziz övladlarını, tarix yazan qəhrəmanlarımızı heç zaman unutmayacaq.*

✍ **Sürəyya QƏDİMƏLİYEVA**



## Vətən müharibəsi iştirakçıları ilə görüş

“Naxçıvan Könüllülərinin Birlik Həftəsi” çərçivəsində bir qrup könüllü gəncin Vətən müharibəsi iştirakçıları ilə görüşü keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondunun birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində reallaşan tədbirdə qazilərimiz – baş gizir Malik Cəbiyev, gizir Pərviz Muradov və kiçik gizir Məhəmməd Əhmədov iştirak ediblər.

Qeyd edək ki, belə görüşlər gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması baxımından çox mühüm əhəmiyyətə malikdir .

Müharibə iştirakçıları döyüş xatirələrini bölüşüb, onları maraqlandıran sualları cavablandırıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Avtomobil texnikalarına baxış-müsabiqəsi



Əlahiddə Ümumqoşun Orduda istismarda olan avtomobil texnikalarına keçirilən baxış-müsabiqəsində qış aylarında bölmələrin yüksək döyüş qabiliyyətində saxlanılması, eləcə də şəxsi heyətin soyuq iqlim şəraitində gecə və gündüz heç bir çətinlik çəkmədən xidmət aparması üçün istismarda olan arxa təminatı avtomobil texnikalarının sazlığı yoxlanılıb.

Hərbi qulluqçuların yemək və su tələbatını ödəmək üçün təyin edilmiş arxa təminatı avtomobil texnika və qurğularının, səyyar soyuducuların, səyyar tipli çörək zavodlarının, su çənlərinin və səhra mətbəxlərinin cəlb edildiyi baxış-müsabiqəsində texnikalara gündəlik texniki xidmətin göstərilməsi ardıcıllığına, onların texniki göstəricilərinin yüksək səviyyədə saxlanılmasına, həmçinin təlimata uyğun istifadə və istismar olunmasına xüsusi diqqət yetirilib.

Baxış-müsabiqəsinin sonunda ən yaxşı nəticəni göstərən hərbi hissələr mükafatlandırılıb.

**Kənan CƏLİLOV**


# Sürətli və sərfəli – *“Bahar Karqo”* MMC




“Bahar Karqo” Məhdud Məsuliyyətli Cəmiyyəti daşınma sahəsində bir qrup peşəkarın yaratdığı şirkətdir. Yaranandа əsas məqsədi maksimum müştəri məmnunluğunu qazanmaq olan “Bahar karqo”nun bu gün ən böyük uğuru elə ondan razı qalan müştərilərdir. Daşınma sahəsində illərlə toplanılan təcrübəni bir araya gətirən karqonun gənc, dinamik və gülərüz kollektivi müştərilərə hər zaman xüsusi diqqət və qayğı ilə yanaşır.

Şirkətin fəaliyyəti yükdaşıma üzrə beynəlxalq standartlara uyğun qurulub və Azərbaycan Respublikasının bu sahədə qüvvədə olan qanunvericiliyinin tələblərini öz işində rəhbər tutur.

“Bahar Karqo” MMC-nin Naxçıvan Muxtar Respublikası ilə yanaşı, Bakı şəhərində filialları, məntəqələri mövcuddur. Karqo Naxçıvan, Şərur, Ordubad, Culfa şəhərlərində də fəaliyyətini davam etdirir.



Naxçıvan şəhərində Nizami küçəsi 41-də yerləşən “Bahar karqo”ya müraciət etməklə Türkiyə-Azərbaycan arasında sərfəli tariflərlə sifariş verə bilərsiniz. Bakı-




Naxçıvan-Bakı istiqamətində isə ən sərfəli 5 kiloqramadək 4 manat, 5 kiloqram üzəri 90 qəpiklə daşınma da həyata keçirilir. Daha ətraflı məlumatı *www.baharkargo.az* saytında əldə edə bilərsiniz.

*“Bahar Karqo” MMC bu yaxınlarda daha bir yeniliyə imza atıb. Belə ki, müştərilər 250 qram üzəri sifarişləri çəki fərqi olmadan 35 türk lirəsi, yəni cəmi 2.10 manata əldə edə bilərlər.*





## Naxçıvan teatrlarında bu həftə nümayiş olunacaq tamaşalar

***Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında dekabrın 9-u saat $19^{00}$-da Mirzə Fətəli Axundzadənin “Sərgüzəşti-vəziri-xani-Lənkəran” komediyası nümayiş olunacaq.***

***Naxçıvan Dövlət Uşaq Teatrında dekabrın 9-u saat $12^{00}$-da Vüsal Rzayevin “Cəsur dovşan” əsəri əsasında hazırlanan eyniadlı tamaşa göstəriləcək.***

***Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında dekabrın 9-u saat $12^{00}$ və $15^{00}$-da Bayram İsgəndərlinin “Yalanlara inanmayaq” əsəri əsasında hazırlanan eyniadlı tamaşa nümayiş ediləcək.***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonunun Xələc kəndində yaşamış Rəhimova Surə Nəcəf qızının adına verilmiş JN-154$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

**Baş redaktor müavini:**
MƏMMƏD BABAYEV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 695